BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2014*

UOT 94(479.24)

# AZƏRBAYCAN MİLLİ MƏFKURƏSİNİN YARANMASINDA «AÇIQ SÖZ» QƏZETİNİN ROLU

**J.M.İSMAYILOVA**
***Bakı Dövlət Universiteti***
***I.Jalebsu.history@mail.ru***

*Məqalədə Azərbaycan milli məfkurəsinin yaranması və inkişafında Məhəmməd Əmin Rəsulzadənin və onun təsis etdiyi «Açıq söz» qəzetinin rolu yeni sənədlər və materiallar əsasında araşdırılır, Azərbaycan milli hərəkatının ikinci mərhələsinin əsas mətbu orqanı və milli-siyasi tribunası olaraq onun aparıcı yeri müəyyənləşdirilir.*

**Açar sözlər:** Azərbaycan, milli, məfkurə, «Müsavat», qəzeti, «Açıq söz» qəzeti

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə əfvi-ümuminin verilməsindən istifadə edən M.Ə.Rəsulzadə Türkiyə mühacirətindən Bakıya qayıdır və «Müsavat» partiyasının proqram və məramnaməsində köklü dəyişikliklər edir. «İqbal», «Dirilik», «Şəlalə» kimi dövrü mətbuat səhifələrində millilik, türkçülük ideyalarını təbliğ edən M.Ə.Rəsulzadə xalqımızın milli özünüdərk və milli oyanış prosesində mühüm rol oynayır (1, 30).

1905-ci ildən keçən onillik müddəti dəyərləndirən M.Ə.Rəsulzadə «on sənəlik kiçik bir fasilə, Azərbaycan türklüyünü mütəəddid mətbuata, müxtəlif müəssisələrə, siyasi məhfillərə, xəfi cəmiyyətlərə, zamandan, məkandan anlar münəvvərlərə malik idrak və şüur sahibi bir cəmiyyət halına qoymuşdur» (2, 25).

M.Ə.Rəsulzadənin 1915-ci ilin oktyabrından nəşrinə başladığı «Açıq söz» qəzeti də bu sahədə geniş iş aparmışdır (3, 362).

«Müsavat» partiyasının rəsmi mətbu orqanı olan «Açıq» söz qəzetinin ilk sayı 1915-ci il oktyabr ayının 2-də həftənin beşinci günü Bakıda dərc olunmağa başlamışdı. M.Ə.Rəsulzadənin rəhbərliyi ilə nəşr olunan bu qəzetin başlığının altında «siyasi-ictimai və ədəbi türk qəzetəsi» sozləri yazılmışdı (4, 20).

«Tutacağımız yol» başlıqlı baş məqaləsində M.Ə.Rəsulzadə «dəhşətlərinə hər kəsin şahid olduğu XX əsri milliyyət əsri» kimi xarakterizə edərək qəzetin əsas qayəsinin Azərbaycan milli məfkurəsinin inkişafı yolunda çalışmaq olduğunu bəyan edirdi (5).

Bu səpkidə ictimai-siyasi fəaliyyətini davam etdirən M.Ə.Rəsulzadə böyük H.B.Zərdabi ənənələrini layiqli bir şəkildə davam etdirərək mətbuat orqanının verdiyi geniş imkanlardan maksimum yararlanaraq onun milli-siyasi tribunaya çevrilməsi yolunda ciddi işlər görməyə başladı. Onun rəhbərliyi altında fəaliyyət göstərən qəzet nəinki milli-demokratik fikir mənsublarını milli idealın gercəkləşməsi yolları ətrafında düşünməyə dəvət edir, eyni zamanda Azərbaycan ziyalı zümrəsinin yetişməkdə olan gənc nəslinin məhz milli ruhda tərbiyə olunması, gələcəkdə milli dövlətin yaranması uğrunda mübarizəyə hazır olması üçün əlindən gələni əsirgəmirdi.

Bu yolda onun atdığı növbəti addım «Ehtiyaclarımız» sərlövhəli yazının dərc olunması oldu. Bu məqalə istər Azərbaycan milli mətbuatında, istərsə də, sosialist mətbuatında olduqca ciddi bir rezonans doğurdu. Müəllif bu ehtiyacları dörd maddə şəklində qruplaşdıraraq onların aşağıdakılardan ibarət olduğunu bildirir: 1) ibtidai məktəblərin yayılması və milliləşməsi; 2) ali mədrəsəyi-ruhaniyyə (darülmüəllimin) açılması; 3) ruhanilərimizin xalq tərəfindən intixabı; 4) mövqufati-islamiyyənin özümüzə qaytarılması və sonda «hələlik bu qədər» deyərək son noqtəni qoyur (6). Vacib olan da M.Ə.Rəsulzadənin milli ehtiyaclarımız deyə sadaladığı dörd maddə deyil, onun I Dünya müharibəsinin iştirakçısı olan imperiyanın əsarəti altında olan xalqın milli-siyasi fikir mənsubları arasında doğurduğu əks-səda idi. Bu məqaləyə ilk reaksiya da «Zakavkazskaya reç» («Güney Qafqaz nitqi») qəzetinin müsəlman mühərriri» Eynəli Sultanovdan gəldi. Daha sonra «Yeni iqbal» qəzeti də «milli ehtiyaclarımıza» diqqət yetirdi. «Kavkazskoe slovo» («Qafqaz sözü») mühərriri Hüseyn Minasazov da müzakirələrə qoşuldu.

«Cəsarətlilər söyləsin» başlıqlı başqa bir yazıda onu tənqid edənlərə cavab verən M.Ə.Rəsulzadə yazır: «möhtərəm münəqqidimiz məqaləmizin axırında olan «hələlik bu qədər» cümləsinin ehtiyaclarımızı xülasə edən maddələrə deyil, bu maddələrin müsaid olduğuna diqqət vermiş olsaydı, bizim təkrar bu maddələrdən bəhz edəcəyimizə dəxi intizar edərlərdi və deyilməyib qalan bir çox noqtələri bəlkə də yazacağımız məqalələrdə bulurlardı» (7). «Əlbəttə, Rusiyada yaşayan müsəlmanların Ümumrusiya vəz-qəvanini yoluyla həll ediləcək bir çox mətləbləri və ehtiyacları var… Onu da cəsarətlilər söyləsin», deyən M.Ə.Rəsulzadə əslində müharibənin doğurduğu ağır senzura şəraitində bir tərəfdən Rusiya əsiri türk xalqlarının gələcək inkişaf yolu ilə bağlı dərin siyasi məsələlərin qoyulmasına və müzakirəsinə işarə edir, digər tərəfdən də sanki həmkarlarını ehtiyatlı olmağa çağırırdı.

Yetişməkdə olan gənc nəslin müzakirələrə qoşulması isə ən çox arzu olunan nəticə idi. Bu baxımdan Ömər Faiq Nemanzadənin «Milli məsələlərimizin vaxtımı?» başlıqlı silsilə yazısı öz cəsarətliliyi ilə xüsusilə fərqlənir: «Bəli, biz Rusiya türklərinin də özümüzə görə ictimai, siyasi arzularımız var. Bu arzuları böyük və qəbul olunmayacaq bir şey sanmayınız! Biz artıq bir zad istəmiyoruz. İstədiyimiz budur ki, bizə də insanlıq hüququ verilsin. Biz də

Rusiyanın hüquqlu təbəəsi cərgəsinə keçəlim. Ögey övlad yerində tutulmayalım. Hökumətin ümumi qanunundan din və millət seçkiliyi olmasın. Xüsusiyyəti-milliyyəmizə etina edilsin» (8).

Beləliklə, «Açıq söz» qəzetində təkcə Azərbaycan türkünün deyil, bütövlükdə Rusiya əsarətində əziyyət çəkən türk və müsəlman xalqların vəziyyəti açıqlanır, əzmli və qətiyyətli mübarizəyə çağırılırdı. Kadetlərlə birləşən müsəlman deputat fraksiyasının bu sahədə gördüyü işlər də xüsusi diqqət mərkəzində saxlanılır, lazım gəldikdə cəsarətlə tənqid olunurdu. Bu səpkidə dərc olunan məqalələr içərisində M.Ə.Rəsulzadənin «Dövlət Dumasının açılışı» başlıqlı yazısı da diqqəti cəlb edir.

«Açıq söz» çarizmin ikiüzlü siyasətini cəsarətlə tənqid edir, hökumət rəsmilərinin yalançı vədlərinin hakim millətin və dövlətin özünün də maraqlarına uyğün olmadığını əsaslandırır, dünya təcrübəsi əsasında ictimai-siyasi inkişafın qarşısıalınmaz olduğu göstərilir və sonda məzlum xalqların azadlığa çıxacağının labüd bir gerçəklik olacağı vurğulanırdı.

«Açıq söz» qəzeti təkcə türk və müsəlman xalqlarının deyil, Qafqaz xalqlarının «ehtiyacları»nı da daim diqqətdə saxlayır, 1905-ci il ildən keçən 10 il müddətində hələ canişin Vorontsov-Daşkov tərəfindən qafqazlılara vəd olunan «zemstvo, ali məktəb və məhkəmeyi-üdul tətbiqinin» öz həllini tapmadığını və bu məsələnin böyük knyaz Nikolay Nikolayeviçə bildirildiyini, bu sahədə əməli addımların atılacağına ümid edildiyini vurğulayırdı. Bu baxımdan M.Ə.Rəsulzadənin «Qafqaziyanın ehtiyaclarından» sərlövhəli yazısı diqqəti cəlb edir (8).

Məqalədə deyilir: «Məlum olduğu üzrə ölkəmiz bu günə qədər qeyri-mədəni, uzaq bir vilayət təhtinə daxil olub, zemstva, ali məktəb və məhkəmeyi-üdul kibi daxili Rusiyanın çoxdan bəri istifadə elədiyi müəssisələrdən məhrumdur. 1905-1906-cı yılların bəxş etmiş olduğu hürriyyət sayəsində ehtiyacati-məhəlliyyədən bəhs etmək xüsusi bir dərəcəyə qədər hürriyyət bulduğundan, yuxarıda zikri keçən məsələlər tərəqqipərvər Qafqasiya mətbuatının milliyyət fərqi gözləmədən-ümumi, müştərək bir əməllərini təşkil etmiş oldu. Yalnız mətbuat deyil, bu məsələlər vaxtıyla əfkari-əmmacə dəxi qəbula keçmiş və bu xüsusun bir an əvvəl tətbiqi Qafqasiya hökuməti-aliyəsi vasitəsilə Rusiya hökuməti aliyəsindən istənilmişdi».

Müəllif çıxış yolu olaraq son günlərdə böyük knyaz Nikolay tərəfindən gündəmə gətirilən bu məsələnin həlli üçün qafqaz ictimaiyyətinin bütün səylərini birləşdirməsini, müsəlman maarifpərvərlərinə də tövsiyyə olunur ki, «zemstva məsələsinin həll olunmaq üzərə olduğunu nəzərə alıb da, bu xüsusda həm mənsub llduqları mühitin fikrini açmaq və həm də bu mühitin mənafeyini gözləmək üçün nə kibi əsasların lazım olduğunu göstərmək üçün əhli-xəbrədən mütəşəkkil bir komisyon vücudə gətirsinlər» (9).

Əlbəttə, hadisələrin sonrakı inkişafında nə Rusiya türklərinin, nə də Qafqaz xalqlarının ümdə problemlərinin həlli yolunda çar administrasiyası

tərəfindən əməli addımlar atılmadı, nəticədə milli məsələ Rusiya imperiyasının süqutunu şərtləndirən amillərdən birinə çevrildi.

Getdikcə ciddi təbliğat mərkəzinə çevrilən «Açıq söz» qəzetində Rusiya müsəlmanlarının din, dil, hüquqi problemləri daim diqqət mərkəzində saxlanılır, M.Ə.Rəsulzadə və həmkarlarının hürriyyət, türklük ruhunda yazılan məqalələri isə Azərbaycan türklərinin milli idealının gerçəkləşməsi yoluna çıraq tuturdu.

M.Ə.Rəsulzadə müharibənin ilk illərinin çətinliklərinə baxmayaraq ağır senzura şəraitində fəaliyyət göstərən qəzetin ən böyük məqsədə – milli məfkurənin təşəkkül tapmasına nail olmaq yolundakı işini yüksək dəyərləndirərək sonralar yazırdı:

«Hərbi ümumi əsasında daha Rusiya inqilabı zühur etmədən, müharibənin qatı sansoru hər yazılanı bilaaman silməkdə, bilxassə türk kəlməsi ilə türkçülük məsləlsəkinə qarşı xüsmanə bir əlaqə göstərdiyi bir zamanda «Açıq söz» qəzetəsi yuxarıda məzkur imanə tərcüman olaraq yazıyordu ki: Hər hankı qalib tərəf az-çox bir sürünclü dinclik vücudə gətirmək istərsə əsrin vicdanları üzərində ən çox təsir icra edən qüvvəti-millət məfkurəsini ehmal edəməz. Bunun böylə olacağı ara-sıra gələcək sülhü həqqində söz söyləyən Avropa mütəfəkkirlər necə də təsdiq olunmaqdadır. Sülhiyyunə mənsub siyasilərcə milliyyət əsasına riayət etmiyəcək. Millətlərin hüququnun gözlətmiyəcək bir sülh müahidənaməsi çox çəkməz yırtılır və sürünclü bir dinclik təmin edəmməz!

Demək ki, müəyyən bir məfkurəyə və əksər əfradınca müşəxxəs bir qayayi-amala malik olan millətlər, dövlətlər arasındakı münasibətdə əhəmiyyət qazandıqları kibi dövlətlərin daxili siyasətləri üzərinə də böyük təsirlər icra edəcəklərdir. Bu surətdə ayrı-ayrı millətlər bir millət olaraq yaşaya bilmək üçün hər şeydən əvvəl kəndilərini bilməli, müəyyən fikirlər və əməllər ətrafında birləşərək, böyük bir məfkurəyə, qayeyi-xayalə hədəf olacaq o işıqlı yıldıza sahib olmalıdırlar. Çünki müttəhid bir ruh və müştərək bir qayəyə malik olmayan millətlərlə yeni əsaslar üzərində qurulacaq həyat hesablaşmayacaq və böylə bir silahdan məhrum qalan cəmaətlər kimsəyə söz eşitdirəmiyəcəkdir.

Böyük müharibənin Qafqasiya türklüyündə doğurduğu ümid böylə idi. Milliyyət prisipinin qalib gələcəyinə bağlanmış bir ümid!» (2, 26).

Beləliklə, M.Ə.Rəsulzadə islamiyyətin və müsəlmanlığın milliyyət deyil, «ümmətçilik» ifadə etdiyini, milliyyətin isə din üzərində deyil, dil və kültür birliyi üzərində qurulduğunu və bu milli diriliyin təməlini təşkil edən mədəniyyətin ünsürlərini izah edərək milli hərəkatın ictimai fəlsəfəsini qurmuşdur. Bu fəlsəfəyə görə: «Millət dili, dini, ənənələri, ədəbiyyatı, tarixi və adətləri bir olan cəmiyyeyi-bəşəriyyəyə deyilir. Təkcə din birliyi milləti təşkil edəməz» (10, 52).

Qəzetdə hökumət tərəfindən fəaliyyətinə rəsmən icazə verilmiş xeyriyyə və maarif cəmiyyətlərinin işi də diqqət mərkəzində tutulur, tərəqqipərvər burjua və milli – demokratik ruhlu ziyalılıarın fəal iştirakı sayəsində ciddi işlər

cörən «Nicat», «Bakı cəmiyyəti-xeyriyyə», «Nəşri-maarif» kimi təşkilatların fəaliyyəti də işıqlandırılırdı. Məhz «Açıq söz» qəzetində «Nicat» cəmiyyətinin rəhbərliyi ilə 1905-1906-cı illərdə keçirilmiş müəllimlər qurultayında qəbul edilmiş qərarların bəzilərinin icra olunmamasının səbəbləri araşdırılır, hökumət orqanları ilə yanaşı xeyriyyə cəmiyyətlərinin özü də ciddi tənqid olunurdu. Bütün bunlar «Açıq söz» qəzetinin getdikcə daha ciddi bir tribunaya çevrilməsindən, nəzəri məsələlərlə yanaşı, praktiki məsələlərin həllində də xüsusi çəkiyə malik olmasından xəbər verir. M.Ə.Rəsulzadə əqidə dostları ilə birlikdə Birinci dünya müharibəsi illərində Qafqaz cəbhəsində hərbdən zərər çəkən müsəlmanlara yardım göstərmək üçün təsis edilmiş Bakıdakı «Xeyriyyə Cəmiyyəti» cəmiyyətinin işində yaxından iştirak edir, «Qardaş köməyi» adlı qəzetin nəşr işləri ilə də məşğul olurdu. Lakin elə ilk sayından sonra qəzet hökumətin təzyiqi ilə bağlandı.

Beləliklə qısa müddət ərzində yüksək ideyalar kürsüsünə çevrilən «Açıq söz» qəzetinin Azərbaycan mətbuatı tarixində rolu böyük oldu. Bu barədə qəzetin təsisçisi, Azərbaycan milli hərəkatının ideoloqlarından biri və onun ikinci mərhələsinin şəksiz lideri M.Ə.Rəsulzadənin irsinin ilk tədqiqatçısı olan M.B.Məmmədzadənin fikirləri olduqca dəyərlidir: «Bax belə bir şəraitdə «Müsavat firqəsinin ruporu şəklini alan «Açıq söz» ilk dəfə olaraq «müsəlman» və «tatar» sözlərini «türk» sözü ilə dəyişməyə girişdi, millətə «sən türksən!», rus hökumətinə isə «biz türkük!» deyə xitab etdi və özünü «gündəlik türk qəzetidir» deyə elan etdi. Bu surətlə M.Ə.Rəsulzadə «ümmət» və «ümmətçilik» dövrünü rəsmən qapamış, «millət», «türk millətçiliyi» dövrünün başlandığını elan etmişdir. Nəzəriyyəsini yaratdığı və formalaşdırdığı bu millətçilik istiqlal qayəsini güdürdü» (10, 52).

**ƏDƏBİYYAT**


1. Балаев А. Мамед Эмин Расулзаде (1884-1955). М.: Флинта, 2009, 288 с.
2. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 116 s.
3. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat (XIX yüzilliyin sonu-XX yüzilliyin əvvəlləri). Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1999, 422 s.
4. Yaqublu N. Azərbaycan milli istiqlal mübarizəsi və Məhəmməd Əmin Rəsulzadə. Bakı, 1999, 90 s.
5. «Açıq söz» qəzeti, 1915, 2 oktyabr, №1
6. «Açıq söz» qəzeti, 1915, 9 oktyabr, №6
7. «Açıq söz» qəzeti, 1915,18 oktyabr, №13
8. «Açıq söz» qəzeti, 1915, 10 noyabr, №31
9. «Açıq söz» qəzeti, 1915, 1 dekabr, №50
10. Məmmədzadə M.B. Azərbaycan milli hərəkatı. Bakı: Nicat, 1992, 246 s.

## РОЛЬ ГАЗЕТЫ «АЧЫГ СОЗ» В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОГО СОЗНАНИЯ АЗЕРБАЙДЖАНЦЕВ

**Ж.М.ИСМАЙЫЛОВА**

### РЕЗЮМЕ

В статье на основе новых фактов и материалов рассматривается роль М.Э.Расулзаде и издаваемой им газеты «Ачыг соз» в формировании и развитии национального сознания азербайджанцев, определяется место основного печатного органа партии «Мусават» - газеты «Ачыг соз» в качестве главной национально-политической трибуны.

**Ключевые слова:** Азербайджан, национальное, сознание, «Мусават», газета, «Ачыг соз».

## THE ROLE OF "ACHIG SOZ" NEWSPAPER IN THE FORMATION OF NATIONAL CONSCIOUSNESS

**J.M.ISMAYILOVA**

### SUMMARY

The present article studies the role of M.A.Rasulzadeh and "Achig soz" («Open Word») newspaper in the formation and development of national consciousness of Azerbaijanis based on new facts and materials.

**Key words:** Azerbaijan, national, consciousness, «Musavat» (equality), "Achig soz" newspaper.